**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İDEOLOGİYA KONSEPTİNİN AMERİKAN DİSKURSUNDA VERBALLAŞMA YOLLARI

İxtisas: 5708.01 – German dilləri

Elm sahəsi: Filologiya

İddiaçı: **Nigar Fikrət qızı Həbibullayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin İngilis dili kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Azad Yəhya oğlu Məmmədov** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, dosent<br>**Rəna Teymur qızı Səfərəliyeva** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Lalə Asif qızı Hüseynova** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Aynur Müzəffər qızı Ağazadə** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | filologiya elmləri doktoru, akademik<br>**Kamal Mehdi oğlu Abdullayev** |
| Dissertasiya şurasının elmi katibi: | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İradə Nadir qızı Sərdarova** |
| Elmi seminarın sədri: | filologiya elmləri doktoru, professor<br>**Fəxrəddin Yadigar oğlu Veysəlli** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Təqdim edilən dissertasiya işi Amerikanın siyasi, media və bədii diskursunda ideologiyaların konseptuallaşmasının tədqiqinə həsr edilmişdir.

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrin sonunda sosial və humanitar elmlər sahəsində diskurs və onun mahiyyəti, strukturu, cəmiyyət və fərd arasında olan bağlılığı haqqında çoxsaylı elmi araşdırmalar meydana gəlmişdir. Bu sahədə T.Van Deykin diskurs və ideologiya arasında əlaqəni araşdıran ideyasını və bu mövzuda əsərini tənqidi diskursiv təhlil sahəsində elmi axtarışların sırasında qeyd etmək vacibdir.

Bir çox ənənəvi yanaşmalardan fərqli olaraq, ideologiya özündə sosial, koqnitiv, diskursiv komponentləri ehtiva edir. İdeologiyanın "İdeyalar sistemi" sosial-koqnitiv, sosial qrupların bölünən reprezentasiyaları kimi, daha dəqiq desək, bu reprezentasiyaların "aşkar" prinsipləri kimi müəyyən olunur.

Təqdim edilən dissertasiya işinin aktuallığı ideologiyanın rolunun və əhəmiyyətinin aşkar edilməsinin həyati vacibliyi ilə diktə olunur. Bu isə dissertasiya işinin tədqiqat mövzusu olan siyasi, media və bədii Amerikan diskursuna aiddir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti ingilis dilində siyasi mətnlər, qəzet məqalələri, bədii və media mətnləri, çıxışlar, ABŞ liderlərinin çıxışları təşkil edir.

Tədqiqat işinin predmeti Amerika siyasi, bədii və media diskurslarının ideoloji aspektləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Amerikan diskursunun aspektlərinin ideoloji xüsusiyyətlərinin üzə çıxarılması və araşdırılması, ideologiyanın diskursla qarşılıqlı münasibətlərinin öyrənilməsi, eləcə də onların Amerikan diskursunda həyata keçirilməsidir; eyni zamanda ideologiyanın rolunun siyasi, bədii və media mətnləri əsasında təsviridir.

Düşünürük ki, material olaraq media, siyasi və bədii diskursların seçilməsi bu diskurs tiplərinin bilavasitə cəmiyyətdə ideologiyanın formalaşmasına olan təsiri ilə şərtlənir.

Bununla bağlı olaraq, siyasi, media və bədii diskurslar tərəfimizdən qarşıya qoyulmuş tapşırıqların həlli üçün ən optimal tiplərdir.

Bu məqsədlərə nail olmaq üçün qeyd olunan vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– siyasi, bədii, media ünsiyyətinin fərqləndirici cəhətlərini təyin etmək, onların idarə olunan potensialını müəyyənləşdirmək;

– cəmiyyətin ideologiyalarının formalaşmasında bədii, siyasi və media mətnlərinin potensialını üzə çıxarmaq;

– mətnləri, mətnlərdən fraqmentləri, çıxışları qarşıya qoyulmuş hədəflərin (məqsədlərin) müəyyən edilməsi və s. məqsədlər üçün təhlil etmək.

**Tədqiqat metodları.** Tənqidi Diskurs Təhlili məqsəddən, öyrənilən obyektin təbiətindən, tədqiqatçının maraqlarından və ixtisasından, həmçinin öyrənilməkdə olan kontekstin digər parametrlərindən asılı olaraq çox sayda müxtəlif araşdırma metodlarına malikdir[1].

Beləliklə, diskursun struktur və strategiyasının aşağıdakı öyrənilmə üsulları vardır:

– nitq və kommunikativ aktların praqmatik təhlili;

– ritorik təhlil;

– stilistik təhlil;

– strukturun səciyyəvi təhlili (xəbərlərin, müzakirələrin, reklam mətnlərinin və s.);

– danışığın təhlili;

– diskurs və qarşılıqlı təsirin vizual materialı və digər multimodal parametrlərinin semiotik təhlili.

Dissertasiya işində nitq və kommunikativ aktların praqmatik təhlil metodlarından, ritorik, kontekstual, mətnlərin tənqidi təhlili, eləcə də insanın koqnitiv bacarıqlarına və ideoloji düşüncəsinə əsaslanan perseptual metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1) Müəyyən olunmuşdur ki, diskursa, əsasən, ideologiya təsir göstərir, ideologiya diskursun əsas problemlərindən biridir və bu

---

[1] Van Dijk, T.A. Critical Discourse Analysis. In: A Handbook of Discourse Analysis / T.A.Van Dijk. – Oxford: Blackwell, – 2001. – 371 p.

səbəbdən diskurs iştirakçıları ilk növbədə diskursun müəyyən tipinin hansı yükü daşıdığı haqqında düşünməlidirlər. İdeologiya, əslində elm olmasa da, özündə elmi baxışları, tendensiyaları, proseslərin və sosial-siyasi həyatın müxtəlif qüvvələrinin dəyərini daşıyır.

2) Bu mövzunun araşdırılması, əksər hallarda ümumi ideoloji əhval-ruhiyyənin silahı kimi çıxış edən ingilis dilinin inkişafının və fəaliyyətinin ictimai xarakterini aşkar edir. Nəzəri cəhətdən həmişə dünya tarixində dilin hakimiyyəti ideoloji razılığa əsaslanmışdır. Eləcə də ingilis dili öz statusunu və hakim qüvvəsini mərkəzləşmiş planlaşdırma olmadan qazanmışdır.

3) Müəyyən edilmişdir ki, tənqidi diskursiv təhlilin başlıca hədəfi və qarşıya qoyduğu vəzifə, diskursun cəmiyyətin şüuruna və düşüncəsinə təsirinin, gücünün və hakimliyinin ümumi təsvirini müəyyən etməkdir.

Tənqidi diskursiv təhlil dili ictimai praktika kimi qəbul edir. Tənqidi diskursiv təhlil diskursu yazılı və şifahi danışıq formasında canlandırır, sosial təcrübənin forması kimi hərəkətə gətirir. Diskursu sosial təcrübə kimi təsvir etməklə bərabər, həmçinin eyni zamanda diskursiv hadisələr və vəziyyətlər, sosial struktur və s. arasında əlaqəni xüsusi təsvir edir. Tənqidi diskursiv təhlil təkcə analitik və tənqidi nöqteyi-nəzərdən deyil, eyni zamanda tərbiyəvi və təhsil potensialı nöqteyi-nəzərindən ən effektiv metodologiyalardan biri hesab edilir. Burada əsas məqsəd manipulyativ, ideoloji diskursları müəyyən etmək, təhlil etmək və onlara nəzarət etməkdir.

4) İdeologiya müxtəlif qruplar tərəfindən ayırd olunan vacib təsdiq, təfəkkür forması kimi müəyyən olunur. Bu, həm də o deməkdir ki, siyasi diskurs siyasətçilərin öz ideoloji fərdiliyini ötürdükləri platformadır. İdeologiya ayrı fərdlər ilə deyil, insan qrupu tərəfindən müəyyən olunur. Lakin təbii ki, ayrı-ayrı fərdlər şəxsi təcrübəyə və həyati hadisələrə, həmçinin, müxtəlif qrupların üzvlüyünə əsaslanaraq, öz ideologiyalarını bölüşə bilirlər. Diskursun siyasi və ideoloji analizi adətən fərdi diskursa əsaslanır, ona görə fərqli ideologiyaların təsirini görmək təəccüblü deyildir.

5) Müəyyən olunmuşdur ki, media diskursu ideologiyanın konseptuallaşmasının baş verdiyi daha əhəmiyyətli bir platformadır. Vacib məsələlərdən biri də kütləvi informasiya vasitələrinin

cəmiyyətin ideologiyasına nə dərəcədə mənfi, yaxud müsbət təsir edib-etməməsi məsələsidir. İlk növbədə, biz insan qrupları və müəssisələrin hakim rolu ilə müəyyən olunan kütləvi informasiya vasitələrinin funksiyasını ictimai güc kimi qeyd etməliyik. Kütləvi informasiya vasitələrinin azadlığı həmçinin onun gücü kimi qəbul olunur.

6) İdeologiya, o xəyalı yolları ifadə edir ki, onun vasitəsilə insanlar dünyanı ədəbiyyatda təqdim olunduğu kimi dərk edirlər. Ədəbiyyat bizə ideologiyaların təbiətini görmə şansı verir, bununla bizi elmi biliyin verdiyi ideologiya anlayışının qavranılmasına yaxınlaşdırır. Amerikan ədəbi diskursunda ideologiyanın təhlili üçün biz Skot Fitsceraldın "Böyük Qətsbi" əsərini seçmişik. Bu əsər ədalət, güc, tamahkarlıq, satqınlıq, Amerika arzusu və s. kimi sosial, siyasi, ideoloji mövzuların müxtəlifliyini çatdırır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi Amerikan siyasi, bədii və media diskurslarının ideoloji aspektlərinin təhlilinə kompleks şəkildə yanaşılmasıdır. Kütləvi, yaxud qrup şüuruna məqsədyönlü təsirin təzahürləri bilik ifadəsinin koqnitiv strukturları ilə münasibətdə tədqiq edilmişdir. Bundan əlavə, bu, respublikamızda siyasi, media və bədii diskurs kimi linqvistik, psixoloji fenomenləri nəzərdən keçirmək üçün ilk cəhdlərdən biridir. Bu səbəbdən dissertasiya işi Amerikan diskursunun araşdırılmasına verilmiş böyük töhfə hesab oluna bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Nəzəri planda araşdırmanın gəldiyi faydalı nəticədir, yəni, başqa sözlə desək, onun nəzəri cəhətdən və dəlillərlə nə qədər əsaslandırılmış olmasıdır. Bu növdən olan diskursiv araşdırmalar tənqidi rakursda modelləşmə üzrə növbəti layihələr üçün müxtəlif tip verbal kommunikasiyalara xidmət edə bilər.

Tədqiqat işinin materiallarından diskursiv təhlil və koqnitiv linqvistika üzrə kurslarda, funksional aspektdə praktiki ingilis dili dərslərində, eləcə də "Sosiolingvistika" kursu üzrə tədris zamanı istifadə edilə bilər ki, bu da əsərin praktiki əhəmiyyətini təşkil edir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin ayrıca bölmələrinin məzmunu Azərbaycan Turizm və Menecment Universitetinin İngilis dili kafedrasının iclaslarında müzakirə edilmişdir.

Tədqiqatın əsas müddəaları 10 elmi nəşrdə şərh edilmişdir. İşin ayrıca problemləri üzrə elmi-nəzəri və praktiki nəticələr beynəlxalq forumlara və konfranslara göndərilmiş məruzələrdə şərh edilmiş və işin məzmunu mütəxəssislər tərəfindən təqdir edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetinin İngilis dili kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi – 6 səhifə olmaqla, 8720 işarə, I fəsil – 49 səhifə olmaqla, 79132 işarə, II fəsil – 34 səhifə olmaqla, 57364 işarə, III fəsil – 41 səhifə olmaqla, 67206 işarə, Nəticə hissəsi – 3 səhifə olmaqla, 3686 işarədir. Dissertasiyanın ümumi həcmi 216 108 işarədən ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

**Giriş**də araşdırma mövzusunun seçimi və aktuallığı əsaslandırılır, onun obyekti və predmeti, məqsədləri müəyyənləşdirilir, mənbə və araşdırma metodları göstərilir, işin nəzəri və praktiki əhəmiyyəti işıqlandırılır, elmi yenilik önə çəkilir, müdafiəyə çıxarılan əsas müddəalar müəyyən edilir, aprobasiyası və dissertasiyanın strukturu haqqında məlumat verilir.

İşin I fəsli **"İdeologiya" anlayışı diskursun əsaslarından biri kimi"** adlanır və iki yarımfəsildən ibarətdir. Birinci fəslin ***"Diskurs-ictimai bir təzahür kimi"***[2] adlı ilk yarımfəslində biz diskursa T.Van Deyk, M.Fuko və s. kimi linqvistlərin yanaşma tərzini xatırlatmışıq. Diskurs sahəsində araşdırmanın yarım əsrdən artıq davam etməsinə, mövzu üzrə axtarışların zəifləməməsinə baxmayaraq məhz mətn-diskurs, diskursun sosial və fərdi xüsusiyyətlər əldə etməsi üçün vacib mühitdir.

M.Fukonun yanaşmasına görə, diskurs cəmiyyətin qurulmasında aktiv yer tutan bir parçadır və eyni zamanda cəmiyyətdən asılıdır. Diskurs bağlılığın gücünün ifadə olunmasıdır

[2] Van Dijk, T.A. Discourse and Context: A Sociological Approach / T.A.Van Dijk. Cambridge: Cambridge University Press, – 2008. – 261 p.

və müəyyən mövzu, yaxud hadisə barəsində düşünülməsi, yazılması və danışılması mümkün olan hər şeyə aiddir[3].

Diskurs – bu, sosial istifadə dilidir. Diskurs təhlili linqvistik təhlildən onunla fərqlənir ki, o, daha çox "ifadələrin, təsdiqlərin" necə yarandığına deyil, hansı formalara sahib olduğuna böyük diqqət yetirir. Diskurs müxtəlif sosial şərtlərlə əmələ gəlir və müəyyən olunur. Fuko diskursu müəyyən etmənin 2 yolunu təqdim edir: 1. Daha geniş mənada, diskurs – dilin sosial praktikanın müəyyən formalarında istifadə olunmasıdır. 2. Daha qısa mənada – diskurs – müəyyən nöqteyi-nəzərdən sosial təcrübənin ötürülmə/çatdırılma dilidir. Diskurs müəyyən fikirləri, sosial əlaqələri, eləcə də dil daşıyıcısının bilik sistemini yaradır, canlandırır və ötürür[4].

Bilik və diskurs bir çox əksər sahələrdə öz aralarında əlaqələnir, biri-digərini tamamlayır və diskursu biliksiz dərk etmək çətin olardı. "USA today", November, 2013, qəzetindən bir nümunəyə baxaq[5]:

*"November, 1963, at 12:29, it was a different America"*

*"Noyabr, 1963 il, saat 12;29, bu başqa Amerika idi"*

Amerikanın tarixi və mədəniyyəti ilə yaxşı tanış olan vətəndaş və ya hansısa şəxs məqalənin bu başlığını oxuyanda təhtəlşüuri olaraq ABŞ-ın keçmiş prezidenti Con Kennedi ilə əlaqəli olan həmin məqalənin əsas ideyasını başa düşür və öncədən ehtimal yarada bilir. İdeologiya diskurs vasitəsilə ötürülür, qrupların yeni üzvlərinə ideologiyanın ötürülməsində və izahında yardımçı olur, eləcə də qrup ideologiyasının kənar müdaxilədən qorunmasına kömək edir. Son onillik ərzində biz, əsasən də ABŞ-da "sosial idrak və dünyagörüş" adı altında koqnitiv reprezentasiyanın və prosesin detallarına daha sistematik diqqət görə bilərik. "Sosial idrak " sosial faktordur. Çünki insanlar həmişə, yaxud getdikcə daha çox başqalarının təsiri altına düşür və nəzəri cəhətdən çoxu araşdırmaların koqnitiv istiqaməti hətta "münasibət" və onun "davranışa" təsiri daha fərdi olaraq qalır.

---

[3] Foucault, M. Archeology of Knowledge / M.Foucault. – New York: Patheon book, – 2004. – 239 p.

[4] Foucault, M. Archeology of Knowledge / M.Foucault. – New York: Patheon book, – 2004. – 239 p.

[5] USA Today// – 2013, 20 November, Wednesday, USA

Sosial-koqnitiv model nəzəriyyəsinin çərçivəsi daxilində, biz təsdiq edə bilərik ki, kontekst sosial vəziyyətin hissəsi deyil, yalnız vəziyyətin subyektiv modelidir. Mental prosesdə mərkəzi rol oynayan kontekstin belə bir modelinə həmçinin diskursun qəbulu da qoşulmuşdur. Bu model, diskursun eyni sosial situasiyada yalnız ictimai-mədəni biliklərə əsaslanmış oxşarlıq göstərdiyini deyil, həm də bu qəbuldan yeganə olduğunu izah edir. Diskursu sosial vəziyyətdə optimal doğru olan formada yaratmaq kontekstin modeli üçün başlıca funksiyadır. Bu, həmçinin kontekstin teoriyasının diskurs üçün əsas yaratması deməkdir. Araşdırmanın növbəti ayrılmaz və vacib komponenti cəmiyyətdir. Bu komponent, aşkar səbəblərdən, koqnitiv yanaşmalardan daha çox diqqət mərkəzindədir. Öz növbəsində, sosial-koqnitiv nəzəriyyə sosial strukturun diskursun strukturuna sosial dünyagörüşü (idrak) vasitəsilə təsir edə biləcəyini izah edir. Diskursun sosial rolunu müəyyən etmək üçün həmçinin cəmiyyətin mikro (yerli, lokal) və makro (qlobal) strukturunun təhlili tələb olunur, yəni, bir tərəfdən fərdi sosial aktyorlar və onların qarşılıqlı təsiri, digər tərəfdən isə, sosial qruplar, hərəkətlər, təşkilatlar, həmçinin onların bir güc və üstünlüyü kimi münasibəti nəzərdə tutulur. Lakin mikro və makro arasında olan fərqin analitik olduğunu unutmaq olmaz. Alimlər diskursun bu tipinin cəmiyyətdə olan ictimai qeyri-bərabərlik, gender problemləri, etniklik və s. kimi problemlərin həllində böyük töhfə ola biləcəyini düşündükləri üçün ümumi diskursun xüsusiyyətlərindən daha az fərdi diskursla maraqlanırlar[6].

Diskursun cəmiyyətdəki roluna və fəaliyyətinə böyük diqqət yetirən dilçi alimlərdən biri də C.Fiske idi. C.Fiskenin fikrincə, dilçi alimlər diskursu təhlil edərkən dili bir sistem olaraq qeyd etmirdilər, yalnız bir sosial akt kimi təhlil edir və dilin sosial funksiyasına böyük diqqət yetirirdilər[7].

Diskurs sözün (sözün mənasının) əmələ gəlməsinin davamlı prosesi və onun cəmiyyətdə dövriyyəsi prosesidir. Diskurs

---

[6] Van Dijk, T.A. Society and Discourse. How Social contexts influence text and talk / T.A.Van Dijk. – Cambridge: Cambridge University Press, – 2010. – 287 p.

[7] Fiske, S.T. Social Cognition. / S.T.Fiske, S.E.Taylor. – New York: McGraw-Hill, – 1991. – 608 p.

mətnlərdə, danışıqda və ya söhbətlərdə görünə və ya eşidilə bilir. Diskurs düşüncələrimizdə öz işini sakitcə davam etdirir, diskurs fərdi şəkildə istifadə olunsa belə, cəmiyyətin sosial həyatının ayrılmaz hissəsi olaraq qalır. Biz diskursdan həm sosial dünyanın qavranılmasının formalaşması, həm də fərdlə cəmiyyət arasındakı əlaqə üçün istifadə edirik.

Diskurs, ümumiyyətlə, həm nəzəri təsəvvürə, həm də onun daxilindəki müəyyən anlayışa aid olan termindir.

Diskurs sosial istifadədə olan dildir. Diskursun təhlili linqvistik təhlildən onunla fərqlənir ki, o, "ifadələrin, təsbitlərin" necə yarandığına deyil, nə yaratdığına böyük diqqət yetirir. Diskurs fərqli sosial şəraitdən qaynaqlanır və müəyyən edilir.

Diskursa və onun araşdırılmasına yanaşmaların müxtəlifliyinin son onillik ərzində tamamilə başqa müstəviyə keçdiyini və bu gün diskursiv-koqnitiv paradiqma adlanan bir mərhələdə olduğunu qeyd etmək doğru olardı. Belə ki, diskursun yaradılmasında diqqət yalnız sosial vəziyyətə deyil, həm də həlledici rol olan kommunikativ vəziyyətə yönəldilmişdir. Söhbət tənqidi araşdırmalar çərçivəsində diskursa iki fərqli yanaşmadan doğan dilemma - sosial və sosial-koqnitiv yanaşma barəsindədir.

Diskursa sosial-koqnitiv yanaşma təkcə sosial kontekstə deyil, həm də diskurs iştirakçılarının səriştəsinə, fon biliklərinə və nəticədə ortaya çıxan idrak qabiliyyətlərinə əsaslanır. Biz diskursu sosial və kommunikativ situasiyalarla müəyyən edilən mürəkkəb sosial-idrak fenomeni kimi nəzərdən keçiririk. Diskursun yaranması, onun idrak qabiliyyətləri aşağıdakı kimi təsnif edilən iştirakçıları ilə şərtlənir:

– mətnin adresantı diskursda anlama, inferensiya və interpretasiya üçün lazım olan müəyyən linqvistik və ritorik vasitələrdən istifadə edir;

– mətnin adresatı diskursun formalaşması prosesində yeni biliklərdən istifadə edir.

Bu baxımdan diskursa R.Uodak tərəfindən verilən tərif simptomatikdir. Belə ki, o, N.Enkvist və U.Tübert kimi, diskursla mətn arasında fərq qoyur, lakin bu çox mürəkkəb fenomeni əsasən

koqnitiv prizmadan nəzərdən keçirir[8]. Mətn diskursun spesifik və bənzərsiz reallaşmasıdır, diskurs isə bilik və strukturların sxemləri və ümumiləşdirmələridir.

Diskurs iştirakçıları öz fon biliklərinə yeni biliklər əlavə edirlər. Beləliklə, diskursdakı bilik mücərrəd koqnitiv fenomen deyil, spesifik insan biliyidir və bu bilik diskursun subyektivliyini şərtləndirən iştirakçıların daxili konteksti ilə bağlıdır. T.Van Deyk "Diskurs və bilik. Sosial-koqnitiv yanaşma" əsərində qeyd edir ki, insan biliklərinin böyük qismi diskurs vasitəsilə mənimsənilir və formalaşır[9].

Bilik obyektiv dünyanın subyektiv əksidir, yəni insan dünyanı bilik vasitəsilə dərk edir. Biliyə nail olmaq üçün biliyin quruluşu haqqında düşünmək vacibdir. Biliyin quruluşu mənsub olduğu predmet, hadisə və obyektin quruluşunu əks etdirir və əgər mənimsəməklə predmetin mahiyyətinə çatmaq istəyiriksə, biliklə və strukturlaşdırılmış predmetlə bağlı sxemləri mənimsəməliyik.

Bilik anlama səviyyələri sırasında birincidir. Bilik, tanıma, eyniləşdirmə, empatiya, interaksiya və anlama. Bu səbəbdən belə hesab olunur ki, bilmək – hələ anlamaq demək deyildir. Bilik anlamanın bir hissəsidir, anlama isə tam bilikdir.[10]

Bir daha qeyd edilməlidir ki, biliklə ideologiya arasındakı əlaqə bir çox nəzəriyyə və fənləri əhatə edən geniş və mürəkkəb problemdir və bir əsər bu qarşılıqlı əlaqənin müxtəlif bilik növləri və ideologiya arasında qarşılıqlı əlaqənin koqnitiv xarakteri və onların diskursla əlaqələri kimi yalnız bəzi konkret məsələlərinə toxuna bilər. Biliklərimizin çoxu adətən diskursda şərh olunur və təkrarlanır və diskursu yaratmaq və anlamaq imkanı əldə etmək üçün insanların çoxlu sayda müxtəlif biliklərə ehtiyacı var. Başqa sözlə, diskurs nəzəriyyəsi onun biliklə qarşılıqlı əlaqəsi haqqında ətraflı nəzəriyyə olmadan kökündən tamamlanmamış hesab olunur.

---

[8] Eco, U. The role of the reader. Explorations in the semiotics of text / U.Eco, I.Enkvist. USA: Indiana University Press, – 1979. – 288 p.
[9] Van Dijk, T.A. Discourse and Context: A Sociological Approach / T.A.Van Dijk. Cambridge: Cambridge University Press, – 2008. – 261 p.
[10] Eco, U. Kant and The Platypus; Essays on language and Cognition / U.Eco. – USA, Florida: First Harvest, – 2000. – 453 p.

I fəslin ikinci yarımfəsli ***"İdeologiya tənqidi diskursiv təhlildə"*** adlanır. Həmin başlıqda biz ideologiya və diskursu tənqidi diskursiv təhlil çərçivəsində nəzərdən keçirdik. Tənqidi diskursiv təhlil II Dünya müharibəsindən əvvəl Frankfurt məktəbi çərçivəsində yaradılmışdır. Hazırki vaxtda tənqidi diskursiv təhlildə diqqət "Tənqidi Linqvistika"[11] ilə başlanan dil və diskursda cəmləşmişdir. Tənqidi diskursiv təhlil yalnız sadəcə araşdırma sahəsi ilə ixtisaslaşmış bir istiqamət, məktəb deyil, həmçinin diskursiv araşdırmalarda çoxsaylı "yanaşmalardan" biridir.

İdeologiya çox tez-tez qiymətləndirmə xarakteri daşıyır. İdeologiya şəxsi fikirlər əsasında deyil, paylaşılan, sosial fikirlər, dünyagörüşü əsasında qurulur. Sosial paylaşılan bilik sosial reprezentasiyanın formasıdır və bu onu göstərir ki, əgər ideologiya reprezentasiyanın əsasıdırsa, bilik də həmçinin ideoloji cəhətdən əsaslandırılmışdır. İdeologiya anlayışı bizim hakimiyyətin reallaşmasında və legitimləşməsində diskursun rolu haqqında düşüncələrimiz üçün birinci dərəcəli olduğundan, o, müəyyən izahlar tələb edir. Bununla belə, bu araşdırma predmeti haqqında klassik baxışları və müasir diskussiyaları hətta ümumiləşdirmək belə mümkün deyildir[12].

İdeologiya konseptinə olan müxtəlif yanaşmalara baxmayaraq bu termin qrup və sinif "şüuruna" münasibətə malikdir. İdeologiya və ideoloji təcrübələr dövlət, media, təhsil, dini mərkəzlər kimi müxtəlif institutlar vasitəsilə reallaşır və təşkil olunur. Tənqidi diskursiv təhlil ilk növbədə subyektiv mənada və dil daşıyıcısının fikrində maraqlı deyildir. Hakimiyyət, hökmranlıq və onların işə salınması özündə qruplar, sosial hərəkət, təşkilatlar və s. kimi kollektivliyi ehtiva edir. Buna görə, xüsusi (spesifik) diskurs hesab olunan şəxsi düşüncə modelindən başqa, koqnitiv diskurs həmçinin öz qrup və ya cəmiyyət

[11] Van Dijk, T.A. Society in Discourse: How Context Controls Text and Talk/ T.A.Van Dijk. – Cambridge: Cambridge University Press, – 2008. – 260 p.
[12] Van Dijk, T.A. 'Text and context of parliamentary debates.' Cross-cultural perspectives on parliamentary discourse / T.A.Van Dijk. – Amsterdam: Benjamins Publishing, – 2003. – 372 p.

üzvləri ilə paylaşdıqları inam yaxud sosial reprezentasiya kimi sosial mənimsəmə forması sayılmalıdır[13].

Bilik, münasibət, dəyərlər, normalar və ideologiya sosial reprezentasiyanın başqa formasıdır. İdeologiya ötürüldüyü, canladırıldığı və diskurs vasitəsilə qəbul olunduğu üçün tənqidi diskurs təhlilinin araşdırılması, həmçinin ideoloji təhlil tələb edir.

Bu gün üçün tənqidi diskursiv təhlil – akademik intizamın bütün faktorlarına malik olan, yaranmış elmi axındır. Tənqidi diskursiv təhlil mərkəzində rasizm, etnik və sosial qeyri-bərabərlik, təzyiq etmə, hegemonluq və başqa hərtərəfli elmi təhlil tələb edən anlayışlar durur. Tənqidi diskursiv təhlil yalnız analitik və tənqidi nöqteyi-nəzərdən deyil, həm də başlıca məqsədi manipulyativ, ideoloji diskursları müəyyən etmək, təhlil etmək olan, tədris və tərbiyə potensialı nöqteyi-nəzərindən effektiv sayılır[14].

II fəsil **"Amerika diskursu və onun spesifik xüsusiyyətləri"** adlanır və iki yarımfəsildən ibarətdir.

İkinci fəslin birinci yarımfəsli ***"Amerika dəyərləri sistemində "İdeologiya və hakimiyyət" konseptləri"*** adlanır.

İdeologiyalar, norma, dəyərlər, maraqlar, düşüncələr və s. kimi əsas sosial ölçüləri təqdim edən bir neçə kateqoriyadan ibarət sosial sxemlə qurulur. Cəmiyyətin üzvləri bir neçə qrupun üzvü ola bilərlər və həm də müxtəlif ideologiyalarda iştirak edə bilərlər. Məsələn, fərdlər eyni vaxtda həm millətçi, həm feminist və s. ola bilər və mental düşüncə modelini, müxtəlif qrupların ideologiyalarını paylaşa bilərlər. Sosial təcrübə və buradan da diskurs, qrupların ideologiyasına nəzarət və onu idarə edə bilər. Bəzən ideologiyalar qruplar arasında rəqabət, münaqişə, hökmranlıq etmə, müqavimət prosesi deməkdir.

Sosial təcrübələr, qrup üzvlərinin diskurslarına qrup ideologiyası tərəfindən nəzarət oluna bilər. Sosial qruplar təhsilin xüsusi formaları, treninqlər, ideya təlqini və s. vasitəsilə ideologiyaların yaranması, onların diskursiv öyrənilməsi və

---

[13] Van Dijk, T.A. Society in Discourse: How Context Controls Text and Talk/ T.A.Van Dijk. – Cambridge: Cambridge University Press, – 2008. – 260 p.

[14] Wodak, R. Methods of critical discourse analysis / R.Wodak, M.Meyer. 2nd edition. – London: Sage Publications, – 2009, – 201 p.

canlandırılmasına səbəb olurlar. Bu ideologiyalar qrupların sosial reprezentasiyasının əsası olaraq fərdi diskursa və digər sosial təcrübələrə nəzarət edirlər. Belə olan təqdirdə, bu həmçinin qrupdaxili qarşılıqlı anlaşma, idarəçilik və əlaqə yaratma bacarığı, qrupdaxili münasibətlərin idarə olunması, rəqabət, münaqişələr və s. üçün vacib vasitədir. İdeoloji sosial təcrübə paylaşılan dilin istifadəsilə qrammatik, diskursiv qaydalar üzərində əsaslanmış mental reprezentasiya kimi müəyyənləşən ideologiyaya əsaslanır. İdeologiyalar sosial təcrübə, qarşılıqlı münasibət və qrup münasibətləri üçün bir əsasdır.

T.Van Deyk "hakimiyyət" konsepti haqqında danışarkən öz elmi işlərində "nəzarət" sözünü işlətməyə üstünlük vermişdir. O nəzarətin bir neçə formasını qeyd etmişdir. Onun fikrincə, nəzarət yalnız sosial təcrübə kimi diskursa münasibətdə deyil, həmçinin idarə olunanların şüuruna, yəni, onların elminə, fikirlərinə, münasibətlərinə, ideologiyalarına və s. münasibətdə həyata keçirilir. Buna müvafiq olaraq qeyd etmək olar ki, diskursa nəzarət edərək həm də insanların şüuruna, başqa cür desək, biliklərinə, ideologiyasına, münasibətlərinə, normalarına, dəyərlərinə nəzarət etmək mümkündür[15].

İdeologiya və ideoloji təcrübələr təşkilatlar, dövlət, təhsil, mətbuat, ailə və s. kimi müxtəlif institutlar vasitəsilə həyata keçirilir və təşkil edilir. Belə ki, hökmran qruplar öz dəyərlər sistemlərini norma kimi qəbul etdirmək üçün cəlb etməyə, paylaşmağa və inandırmağa çalışırlar. Belə olduqda, "hakimiyyət" hegemoniya forması aldığı zaman, "ideoloji canlandırma" vacib təşkilati rol oynayır[16].

Diskurs və hakimiyyət arasındakı əlaqəni təhlil etmək üçün, ilk növbədə, siyasət, KİV, elm kimi müəyyən diskurs formalarına çıxış tapmalıyıq. İkincisi, yuxarıda qeyd edildiyi kimi, hərəkətlər şüur tərəfindən idarə olunur. Buna görə də biz insanların ağlına,

---

[15] Dijk, T.A. Ideology. An Interdisciplinary approach / T.A.Dijk. – London: Sage Publications, – 2000. – 366 p.
[16] Eagleton, T. Ideology, Introduction to Ideology / T.Eagleton. – London: Verso, – 2007. – 268 p.

düşüncəsinə təsir, hərəkətlərinə nəzarət edə bilərik və bu prosesə manipulyasiya deyilir.

Hakimiyyət yalnız diskurs “daxilində" və ya "vasitəsilə" həyata keçmir, həm də diskurs "xaricində" qüvvə olaraq mövcuddur. Bu mənada, diskurs və hakimiyyət arasındakı əlaqə sinif, qrup və ya institutun hakimiyyətinin birbaşa təzahürü şəklində özünü göstərir və eyni zamanda onların iştirakçılarının mövqeyindən və ya statusundan asılıdır. Hakimiyyətin diskursda gerçəkləşməsi üsullarını təhlil edək:

1. Fəaliyyətin birbaşa idarə olunması diskursun, məsələn, təhdidlərin, qanunların, əmrlərin, nizamnamələrin, göstərişlərin təsiri ilə və məsləhət, tövsiyə kimi daha az birbaşa formaların köməyi ilə əldə edilir.

2. Reklam və təbliğat kimi inandırıcı diskursiv formalar da adresatın fəaliyyətinə birbaşa təsir etmək məqsədi daşıyır. Onların hökmranlığı iqtisadi, maliyyə mənbələrinə əsaslanır və kütləvi informasiya vasitələrinə və auditoriyanın diqqətinə əlçatanlıq sayəsində həyata keçirilir. Bu halda razılıq ritorik vasitələrin, məsələn, təkrarlamalar və metaforaların, metonimiyaların vasitəsilə əldə olunur.

3. Məcburi diskurs formalarından əlavə, ehtimal olunan fəaliyyətə təsir mümkün hadisələrin, vəziyyətlərin və hərəkətlərin, məsələn, çox zaman müxtəlif növ məsləhətlərlə birgə proqnozlar, planlar, ssenarilər, proqramlar və xəbərdarlıqlar şəklində təsvir edilməsi yolu ilə əldə edilə bilər. Bu halda peşəkarlar (“ekspertlər”) hakim qruplar qismində çıxış edir, hakimiyyət isə biliklərin və texnologiyaların idarə olunması ilə ifadə edilir.

4. Romanlar və ya kinofilmlər kimi geniş yayılmış və təsirli müxtəlif növ mətnlər və ya əsərlər gələcək fəaliyyətin arzu olunan və ya arzuolunmaz xüsusiyyətlərini təsvir edə bilər və dramatik və ya emosional təsvir ritorikasına müraciət edə bilər. Hakim qruplar "simvolik elitalar" adlandırdığımız toplumlardır. Bu diskurs qrupunun fərqli xüsusiyyəti nəinki cari hadisələri və onların mümkün fəsadlarını təsvir edən, həm də fəaliyyəti əhəmiyyətli dərəcədə qiymətləndirən və siyasi, iqtisadi, hərbi və sosial hakim qrupların rəyini ifadə edən KİV xəbərləridir. Hakimiyyətin əsası ilk növbədə

bu üsulla formalaşır ki, bununla da geniş auditoriya kimin hakimiyyətdə olduğunu və nə istədiyini öyrənmək imkanı əldə edir.

Bu da həm iqtidarın ideoloji əsasının, həm də müxtəlif müqavimət formalarının mövcudluğunun əsas şərtidir. Bu tipologiyadan bəlli olur ki, hakimiyyətin diskursiv gerçəkləşməsi ilk növbədə inandırıcı xarakter daşıyır. Hakim qruplar və institutlar nadir hallarda daha az təsir gücünə malik qrupların nə etməli olduqlarını diktə etmək məcburiyyətində qalırlar, baxmayaraq ki, son nəticədə bu cür göstərişlər, dövlət idarəçiliyində olduğu kimi, digərlərinin idarə edilməsində də həlledici ola bilər. Onlar iqtisadi, siyasi, sosial və əxlaqi mülahizələrdən istifadə etməklə və müvafiq məlumatları nəzarətdə saxlamaqla inandırırlar. Bu baxımdan informasiya onun hakim elitanın maraqlarına uyğun olaraq təqdim edilməsi və ya maraqları ilə ziddiyyət təşkil edərsə, onun məhdudlaşdırılması sayəsində subyektiv ola bilər. Bu məqsədlərə ritorik və ya bədii ifadə vasitələrindən istifadə etməklə nail olmaq olar[17].

İdeologiya – bu, sosial qruplar tərəfindən bölünən sosial reprezentasiya üçün əsasdır. Qruplardan, etnik tərkiblərdən asılı olaraq hökmran qrupların ideyaları pozitiv və neqativ kimi dəyərləndirilmişdir. İdeologiya əksər hallarda öz maraqlarını təqdim edən sosial qruplarla, siniflərlə, cəmiyyətlərlə assosiasiya olunur. Diskurs və ideologiya üzərində nəzarət – bu, oxucu və tamaşaçıya aid təfəkkür, şüur və idrak üzərində nəzarətdir, bu, cəmiyyətlə manipulyasiya etməkdir.

İkinci yarımfəsil ***"Amerikan diskursunda ideologiyanın konseptuallaşması"*** adlanır.

İdeologiya diskursa, qloballaşmaya, qlobal ingilis dilinə güclü təsir edir və buna görə bu diskursların iştirakçıları ilk növbədə həmin diskurs növünün hansı ideoloji yük daşıdığını düşünməlidirlər. İdeologiya diskursun əsas problemlərindən biridir[18].

---

[17] Talbot, M. Media discourse: Representation and Interaction / M.Talbot. – Edinburgh: Edinburgh University Press, – 2007. –208 p.

[18] Francis, B. Theory of ideology and Culture, Knowledge is Power / B.Francis. – USA, – 2014. – 42 p.

İdeologiya heç də elm deyil, lakin özündə elmi baxışların, tendensiyalar dəyərinin, sosial-siyasi həyat proseslərinin və müxtəlif qüvvələrinin daşıyıcısıdır. Hazırkı mövzu üzərində araşdırma, dilin inkişafının və yerinə yetirdiyi funksiyaların ictimai xarakterini açıqlayır. Qlobal ingilis dili, beynəlxalq kommunikasiya vasitəsidir. Beynəlxalq ingilis dili öz universallığı ilə heyran edir və başqa sözlə "lingua franca" (linqva franka) adlanır. İngilis dilinin qlobal statusu və onun öz statusu, bu dili istifadə edən ölkələrin və mədəniyyətlərin ideoloji cizgilərini əks etdirir. Bu ideologiya cürbəcür gizli və aşkar vasitələrlə bir dövlətin, yəni ABŞ-ın siyasi, hərbi və mədəni qüvvələri ilə təmin olunur.

Beləliklə, ideologiya – bu insanlara, qruplara, siniflərə "qədər" və ya onlar "arasında" demək deyil, bu onların şüurunun bir hissəsidir. Eynilə dil kimi, ideologiya həm sosial, həm də mental obyektdir. Dil və ideologiya biri-digərinə qarşılıqlı təsir göstərir, ideologiya dilə böyük təsir edir, lakin dil də öz növbəsində ideologiyaya təsir göstərir, əsasən də onun konseptualizasiyada olan rolu burada vasitə olur[19].

İdeologiya sosial, siyasi ola bilər və xüsusi qruplara və sosial strukturlara aid olaraq həmçinin koqnitiv xüsusiyyətlər daşıyır. O özündə ideyalar, fikirlər, şəxsi yanaşmalar, inam, mülahizələr və dəyərlər daşıyır. İdeologiyanın nəzəriyyəsi və müəyyən olunması koqnitiv elmin nəticəsinə əsaslanmalıdır və ideologiyanı şüurluluqdan seçmək lazımdır. Digər tərəfdən, ideologiya təyini – inamlar sistemi kimi, tam dəqiq deyil. Belə ki, ideologiya – daha abstrakt anlayışdır, ictimai cəhətdən paylaşılan inamlar sisteminə malik cəmiyyətin müxtəlif qruplarına aiddir. Bu isə ideologiyanın fərdi anlayış olmaması faktını bir daha təsdiq edir.

III fəsil "**Amerikan diskursunun müxtəlif tiplərində və janrlarında ideologiyanın linqvistik verballaşması**" adlanır və üç yarımfəsildən ibarətdir.

Üçüncü fəslin ilk yarımfəslinda biz ***"Amerikan media diskursunda ideologiyanın verballaşması yolları"***nı təhlil etmişik.

---

[19] Van Dijk, T.A. Discourse and knowledge. A Socio – Cognitive Approach / Van Dijk, T.A.– Cambridge University Press, – 2014. – 407 p.

Həmin yarımfəslin başlıca məqsədi, Amerikan media diskursunda “ideologiyanın” konseptualizasiyasının linqvistik vasitələrinin təhlilidir. Məlum olduğu kimi, media diskurs, ideologiyanın konseptualizasiyasının baş verdiyi daha vacib bir platformadır.

Vacib məsələlərdən biri – kütləvi informasiya vasitələrinin cəmiyyətin ideologiyasının formalaşmasına nə qədər müsbət ya mənfi təsir etməsini müəyyən etməkdir. İlk növbədə biz bir qrup insan və institutlarının hökmranlıq rolu ilə müəyyən edilən kütləvi informasiya vasitələrinin funksiyasını sosial qüvvə kimi qeyd etməliyik. Kütləvi informasiya vasitələrinin azadlığı həmçinin kütləvi informasiya vasitələrinin gücü kimi qəbul olunur.

İdeologiya sosial idrakın bəlli olan əsasıdır. O, şəxsiyyət, məqsəd, dəyərlər, sosial baxışlar və s. kimi sosial qrupların müxtəlif maraqlarını təmsil edir. Bu yanaşmaya uyğun olaraq, ideologiyanı, sosial sferada öz müəyyən mövqeyinə malik olan qrupların "sxemi" kimi təqdim etmək olar.

Media diskursun gücü yalnız intellektual modeli və onun öz nəticəsi olan sosial şəklə nəzarət etmək qabiliyyəti ilə deyil, həm də nəzarətin şərtlərini formalaşdırmaq qabiliyyəti ilə müəyyən olunur. Media mətnlərin ideoloji çalarlılığı oxucunun təhtəlşüuruna təsir üsullarından istifadə yolu ilə üzə çıxır – bura dil üzrə oyunlar, informasiyanın implisit ötürülmə vasitələri daxildir. "USA Today" qəzetindən Rik Hempsonun məqaləsindən götürülmüş növbəti mətn parçasına baxaq:

*Almost all Americans over 55 remember when they learned John F. Kennedy had been shot. And almost all Americans, regardless of age, know something about that 50 years ago, when everything seemed to change.(USA Today| November, 2013;1A)*

*55 yaşdan yuxarı amerikalıların demək olar ki, hamısı Con Kennedinin qətl xəbərinin eşitdikləri vaxtı xatırlayırlar. Və demək olar ki, yaşından asılı olmayaraq bütün amerikalılar, 50 il öncə hər şeyin dəyişməsi kimi zənn edilən əhvalatdan məlumatlıdırlar.*

Bu mətni göndərən "USA Today" qəzetinin jurnalisti güman edir ki, onun auditoriyası yaxud qəzetləri keçən əsrin 60-cı illərinin həmin hadisələrindən xəbərdardırlar. O dövrün tarixi-siyasi

konteksti, ideoloji gizliliklərdən asılı olaraq mətnin sonunda əksini tapmış bəzi dəyişiklikləri diktə etmişdir.

Media diskursun mətnlərində həmçinin implisitlik, ideoloji çalarla geniş şəkildə təqdim olunmuşdur. İmplisitlik, bu güman ediləndir, gizlidir və semantik-praqmatik kateqoriya kimi qəbul edilir. Onun məqsədi, fikirlərin dil vahidində öz ifadəsindən daha geniş olduğu məzmun və ifadədir. Metafora güclü və vacib stilistik vahidlərdən biridir və dinləyicilərə gözəçarpan dəyərləri və seçimləri anlamaq və dərk etməkdə kömək edir. Bununla da öz ideologiyasını qurmağa yardım edir[20].

DeWayne Wickham, "USA Today" qəzetindəki məqaləsinin başlığını nəzərdən keçirək:

*GOP Tea party wing launches second civil war (USA Today\ November, 2013;9A)*

*Köhnə Doğma Partiyanın çay qonaqlığı adlı qanadı ikinci vətəndaş müharibəsinə rəvac verir.*

"GOP"- Good Old Party- "Köhnə Doğma Partiya", yəni ABŞ Respublikaçılar partiyasının qısaldılmış ad formasıdır. Ultra mühafizəkar baxışların tərəfdarı olan Respublikaçılar Partiyasının qanadı, yalnız mühafizəkarlar və liberallar arasında deyil, həm də Respublikaçılar partiyası daxilində mötədil və radikal qüvvələr arasında ideoloji bölgünü konseptual edən metaforik ifadə ilə adlandırılıb.

Amerika sosioloqu Ceyms Devison Hanterin sözlərinə görə, KIV – müasir Amerika cəmiyyətində mənəviyyat, etika və əxlaqi problemlərin savaş açdığı, "mədəniyyətlərin müharibəsi"nin baş verdiyi məkandır. D.Hanter, eləcə də o vasitələri xüsusilə vurğulayırdı ki, orada media mətnlər- reklamlar, yeniliklər, qəzet məqalələri ictimai diskursun başlıca formasıdır və mədəniyyətlərin toqquşmasına və müharibəsinə səbəb olur. Müasir mədəniyyət müharibələrinin səbəbi olan məsələlərin çoxu kütləvi informasiya

---

[20] Mammadov, A.Y. Metaphors in the American and Russian political discourse / A.Y.Mammadov – Baku: Cashioglu, 2010. – p. 69-75

vasitələri tərəfindən yayımlanan ideyaların qəbulu və necə qəbul olunmasıdır[21].

Üçüncü fəslin ikinci yarımfəsli ***" Amerikan siyasi diskursunda ideologiyanın verballaşması yolları"***nın təhlilinə həsr olunub. Siyasət cəmiyyətin sosial həyatının ayrılmaz bir hissəsidir. Biz həmçinin metaforik söz və ifadələrə siyasi diskursun vacib ritorik üsullarından biri kimi baxırıq[22].

Hər bir siyasətçi, öz mətnini yaradaraq, ilk növbədə öz auditoriyası və xüsusilə də öz resipiyentləri, onların ideoloji və mədəni baxışları haqqında düşünür.Siyasi diskursun başlıca məqsədi vətəndaşlar arasında fikir birliyi yaratmaqdır[23].

Adətən hesab olunur ki, siyasətçilər öz potensial auditoriyalarını tanıyırlar və buna müvafiq olaraq öz nitqlərini qururlar və dinləyicilərin diqqətini cəlb etmək üçün müəyyən ritorik üsullardan istifadə edirlər[24]. Metaforlar daha geniş problemlər üçün simvola çevrilirlər. Məsələn, Franklin Ruzvelt ABŞ tarixinin ən çətin problemlərindən biri – "Böyük Böhran" dövründə öz nitqində, xalqı özü tərəfindən hazırlanmış "Yeni Sövdələşmə" adlı siyasi strategiyaya doğru çağırırdı;

*"I pledge you, I pledge myself, to a "New Deal" for the American people" (Franklin Roosevelt ,July 2, 1932, Capitol Plaza, Presidential Elections).*

*"Mən sizə söz verirəm, Mən özümə söz verirəm, Amerika xalqı üçün "Yeni Sövdələşmə" dövrü haqqında söz verirəm."*

Bütün ümidlərin tükəndiyi bu dövrdə, metaforik ifadə ilə adlanmış və xüsusi olaraq hazırlanmış "Yeni Sövdələşmə" proqramı, öz qüvvəsini ölkənin bütün sahələrində göstərmişdi. Qısa müddətdən sonra ölkədə inam artdı və Birləşmiş Ştatlar Böyük Böhran illərinin bütün çətinliyini arxada qoymuş oldu. "Yeni Sövdələşmə" siyasəti

---

[21] Hunter, J.D. Culture Wars. The struggle to define America / J.D.Hunter. – USA: Basic Books NY, – 2001. – 432 p.

[22] Ricento, T. An introduction to language policy, Theory and method / T.Ricento. – UK: Blackwell Publishing, – 2006. – 362 p.

[23] Ricento, T. Ideology, politics and language policies; Focus on English/ T.Ricento. – Amsterdam :John Benjamin's, – 2000. – 193 p.

[24] Musolff, A. Metaphor and political discourse: Analogical Reasoning in Debates / A.Musolff. – London: Palgrave MacMillan, – 2004. – 211 p.

xilasedici oldu və yeni bir strategiya yaratdı, iqtisadiyyatın inkişafına təkan verdi, eləcə də ABŞ dövlətinin digər sahələri dirçəldi. Bu metaforik ifadə lokallıqdan qloballıq xüsusiyyəti qazandı, müxtəlif dövrlərdə bir çox ölkələr həmçinin öz "Yeni Sövdələşmə"lərini yaşadılar.

Diskurs və ideologiya arasında əlaqə tamamilə çarpaz ola bilər. Spesifik, xüsusi münasibət, təfəkkür, yaxud şəxsi modellər, ideologiya və diskursun strukturu arasında qarşılıqlı təsir olan reprezentasiya tipi ola bilər. Bu onu göstərir ki, ideologiyaların heç də həmişə izahı mümkün olmaya bilər. Onlar gizli, qeyri-aşkar ola bilər. Onların müəyyən hadisələr barədə fikir formasında yaxud hadisənin təsviri formasında ötürülə bilərlər.[25]

D.Trampın növbəti sözlərinin ideoloji xüsusiyyətlərini təhlil edək:

(The New York Times, September 5, 2016) Mr. Spencer wrote: *Immigration is a kind a proxy war- and may be a last stand- for White Americans, who are undergoing a painful recognition that, unless dramatic action is taken, their grandchildren will live in a country that is alien and hostile".*

D.Tramp Respublikaçılar Partiyasının üzvüdür və öz nitqini bu problemin ABŞ cəmiyyəti üçün vacibliyini vurğulamaqla mühacirlərə ünvanlamışdı. Bunu o, xaricilərə, rasizmin ideologiyasına əsaslanan sosial fərqlilik münasibəti göstərir. Koqnitiv reprezentasiya nöqteyi-nəzərindən o, "amerikalılar"ı pozitiv termin kimi, "mühacirləri" neqativ termin kimi təqdim edir və bununla da ABŞ cəmiyyəti üçün onların təhlükəli olduğuna eyham vurur.

III fəslin üçüncü yarımfəsli ***"Amerikan bədii diskursunda ideologiyanın verballaşması yolları"*** adlanır. Ədəbiyyatda, siyasətdə yaxud teologiyada olduğu kimi ideologiya vacib yer tutur və onu sona qədər nəzərdən keçirmək, yaxud inkar etmək mümkün deyil. Bir çox ədəbi nəzəriyyələrdə və ya tənqidi fikirlərdə "ideologiyanın"

---

[25] Mammadov, A.Y. The role of figurative language in political discourse. Studies in Language, Culture and Society / A.Y.Mammadov, M.Y.Mammadov.– Frankfurt: Peterlang Edition, – 2014. – 127 p.

ümumi qəbul olunmuş mahiyyəti göstərilir, ideologiya – fikir və ideyaların toplumudur.

Ədəbiyyatın dəyəri cəmiyyətin enerjisini hopdurmağında, yazıçının dünyanı olduğu kimi qəbul etməməsində, onu yenidən yaratmasındadır[26].

Bu yarımfəsildə biz ideologiyanın bədii ədəbiyyatla qarşılıqlı əlaqəsini təhlil etməyə çalışdıq. Bu əlaqədə biz 20-ci əsr Amerika yazıçısı Skot Fitsceraldın "Böyük Qətsbi" əsərini nəzərdən keçirmişik. Bizim seçimimizin səbəbi ondan ibarətdir ki, S.Fitscerald Amerika ədəbiyyatının ən parlaq simalarından biri hesab edilir. Onun əsəri 20-ci əsr Amerika həyatının bütün koloritini özündə əks edtirir. Bu nöqteyi-nəzərdən "Böyük Qətsbi" əsəri nümunəvi bir əsərdir.

Bu əsər, ədalət, güc, tamah, xəyanət, Amerika arzusu və bu kimi sosial, siyasi, ideoloji mövzuların rəngarəngliyini çatdırır.

Qətsbinin arzusu və Amerika cəmiyyəti arasında aşkar əlaqəni qeyd etmək lazımdır. S.Fitscerald Qətsbinin köməyi ilə cəmiyyətin təmtəraqlı həyat arzusunu, cəhdlərini ciddi tənqid edirdi. Özünün bu əsəri ilə o sanki, Amerika cəmiyyətinin üzvlərinin Amerika arzusu haqqında olan qeyri-düzgün təsəvvürlərini dəyişməyə, onları düzəltməyə çalışırdı. Tənqidçilərin fikrincə, S.Fitsceraldın başlıca məqsədi, idealisti təbiətinə görə göstərmək idi və idealist sosial ierarxiyanın pillələri ilə yuxarı qalxdıqca, bir o qədər oxucunun gözlərində ideallığını itirirdi.

S.Fitsceraldın dili və üslubu onun Amerika arzusunu necə gördüyünü – onun ideologiyasını və onun xarakterini əks etdirir - bununla da onun əks əhval-ruhiyyəsinə və reallığın təhrifinə işarə edir. Cəmiyyət, Amerika arzusunu azadlıq vədi kimi – təqibdən, sıxışdırılmaqdan və ədalətsiz düşmənçilikdən, müharibədən xilas olmaq kimi, eyni zamanda da irəli hərəkət etmək və uğur qazanmaq üçün azadlıq kimi qəbul edirdi.

S.Fitsceraldın əsərinin dili vasitəsilə 20-ci illərin ictimai ideologiyasının nə qədər təhrif olunmasına, "təzyiqlərlə" zədələndiyinə işarə edirdilər. Belə ki, əgər hətta cəmiyyət bütövdürsə, vəhdətdədirsə, onun üzvləri sosial və emosional olaraq

---

[26] Рахимова, М.В. Американская модель популярной культуры / М.В.Рахимова. – Москва: Знание, – 2007. – 216-220 с.

bir-birindən təcrid olunmuşdur. Buna nümunə olaraq, Nikin Tom və Deyzi ilə danışığının təsvirini göstərə bilərik. Nik deyir: *"Two old friends whom (he) scarcely knew at all".*

Verilmiş nümunəyə baxsaq, görərik ki, burada müəllif təkəbbürlərinə görə bir-birindən ayrı düşmüş və parçalanmış və bir-birini şəxsi məqsədləri uğrunda əzməyə çalışan cəmiyyət barədə öz fikir və mülahizələrini bölüşmək istəyir.

1920-ci illərdə ABŞ çiçəklənmə dövrünü yaşayırdı. Bu, o dövr idi ki, neft ölkə iqtisadiyyatının gəliri üçün başlıca mənbəyə çevrilımişdi. S.Fitscerald üçün Amerika arzusu, bu, bir absurd və cəmiyyət üzvlərinin arzu dünyasının təhrif olunmuş şəkli idi. Bu, gözəl, valehedici, lakin eyni zamanda ideologiyanın və təfəkkürün zərərli aspektini müəllif bir çox oxucular üçün Amerika arzusunun emblemi olmuş Qətsbi vasitəsilə ötürmüşdü. Qətsbinin həyat ideologiyası "Amerika arzusunun" dərin daxili ikiləşməsini əks etdirir.

Amerika arzusunun gələcək və zənginliyə meylli olması ideyası, əsərin sonunda Qətsbinin özü tərəfindən təkzib edilir.

*“The future is not some American dream, but a rekindling of the past”.*

*"Gələcək, bu Amerika arzusunun həyata keçməsi deyil, bu keçmişin dirçəlməsidir."*

Bu cümlə bir daha göstərir ki, əsər Amerika cəmiyyətində 20-ci illərdə hakim ideologiyanın tənqid edilməsi və narazılığın ifadə edilməsi üçün yaradılmışdır. Cəmiyyətin üzvləri Qətsbi obrazında var-dövlət, zənginlik ardınca qaçdıqda mənəvi dəyərləri unudurdular, bununla da Amerika cəmiyyətini qısa müddət ərzində təqib edən absurd ideologiya yaradırdılar.

Qeyd etmək lazımdır ki, Amerika yazarı Frensis Skot Key Fitscerald nəinki Amerika, həm də dünya ədəbiyyatı tarixinə daxil oldu və onun "Böyük Qətsbi" əsəri XX əsrin ən parlaq kitablarından birinə çevrildi. Əsər Oksfordun "Əsrin yüz ən başlıca kitabı" adlı siyahısında ikinci yer tuta bildi.

Sonda dissertasiyanın məzmunundan çıxan əsas nəticə və yekunlar təqdim olunur. Bununla, dissertasiya işi Amerikan diskursunda "ideologiya" konseptinin hərtərəfli təhlilinə, eləcə də

ideologiyanın siyasi, bədii və media diskurslarda verballaşma yollarının təhlilinə həsr edilmişdir.

Amerikan diskursunu diqqətlə təhlil etmiş olaraq, onun ən vacib xüsusiyyət və keyfiyyətlərini təsvir etməklə, əlimizdəki müasir dilçilik üçün məzmunun təhlilinin mahiyyətini göstərməklə və eləcə də elmi ədəbiyyatın nəzərdən keçirilməsi və müxtəlif siyasi, bədii və media materialların təhlili ilə aşağıdakı nəticələr əldə edilir:

1. Tənqidi diskursiv təhlil, bu, ilk növbədə sosial və siyasi kontekstlər vasitəsi ilə ötürülən, hakimiyyətdən sosial sui-istifadənin, hökmranlığın, sosial qeyri-bərabərliyin, ayrı-seçkiliyin yollarını tədqiq edən diskursun analitik təhlilinin bir növüdür. Tənqidi diskursiv təhlildə əsas amillərdən biri cəmiyyətdir.

2. Diskursu öyrənərkən, ilk olaraq mental modeli, prosesi, həmçinin cəmiyyətin sosial bilgisinin qayda və konvensiyalarını araşdırmaq lazımdır. Diskurs, sosial təbəqələri məlumatlandıran bilik sistemidir və nəticə olaraq cəmiyyətin gücünü yaradır. Diskurs cəmiyyətin qurulmasında aktiv bir halqadir və eyni zamanda da cəmiyyətdən asılıdır.

3. İdeologiya sosial qrupların üzvləri, təşkilatlar və s. arasında sosial mənimsənilmənin təşkilinin başlıca aspektidir. İdeologiya koqnitiv olduğu kimi həm də sosial kateqoriyadır. Koqnitiv reprezentasiya diskurs və hərəkət vasitəsilə ötürülür, sosial reprezentasiya sosial statusa, eləcə də müxtəlif sosial qrupların maraqlarına işarə edir.

4. Hazırki işdə, biz ideologiyanın Amerika siyasi diskursunda verballaşmasının yollarını təhlil etdik. Bu analizə müvafiq olaraq, Amerikan siyasi diskursu: 1) mürəkkəb kommunikativ fenomendir, 2) cəmiyyətin şüurunu, ideologiyasını əks etdirən və manipulyasiya edən mühitdir, 3) koqnitiv prosesdir, çünki biliyin transformasiyası ilə və yeni biliklərin formalaşmasıyla əlaqədardır.

5. Amerikan diskursunun növbəti təhlil növü, bu konseptin verballaşması üçün əhəmiyyətli platform hesab edilən media diskursdur. Çünki ideologiya sosial mənimsəmənin müəyyən əsasıdır. Bununla əlaqədar olaraq biz hesab edirik ki, həmin diskurs növü xüsusi maraq cəlb edir, çünki, o mədəni cəhətdən və ideoloji olaraq əsaslandırılmışdır. Bu yanaşmaya müvafiq olaraq,

ideologiyanı bir "sxem" kimi təqdim etmək olar. Bu sxemə görə, hakim qruplar sosial sahədə müəyyən mövqeyə sahibdirlər.

6. Hazırki işdə, Amerikan bədii diskursunda "ideologiya" konseptinin verballaşma yollarının təhlili üçün, biz Amerika yazarı Skot Fitsceraldın "Böyük Qətsbi" əsərini seçdik. Çünki bu əsər 20-ci əsr Amerika həyat tərzinin bütün koloritini özündə cəmləşdirib.

Haqqında söhbət etdiyimiz əsəri və onun qəhrəmanlarını təhlil etməklə, biz ideologiyanın nəzarətedici və hakim siniflərlə yayıldığı və həkk olunduğu və beləcə həyat tərzinin bir hissəsinə, cəmiyyətin təfəkkürünün parçasına çevrildiyi amili xüsusilə vurğuladıq. Bütün fikirlər, inam, düşüncələr zaman-zaman ideologiya ilə doğulur və zamanla təbiiləşir.

Dissertasiyanın əsas müddəaları müxtəlif elmi məcmuələrdə çap olunmuş aşağıdakı məqalə və tezisdə öz əksini tapmışdır:

1. Идеология посредством глобального английского языка// – Баку, Азербайджанский Университет Языков, журнал «Dil və Ədəbiyyat», – 2015. № 6, – с. 87-91
2. О когнитивной теории дискурса // – Баку, Бакинский Славянский Университет, журнал «Tağıyev Oxuları», – 2016. № 1, с. 3-6
3. Концептуализация идеологии в американском медиа дискурсе // Баку, Бакинский Государственный Университет, Международный научно-теоретический журнал «Dil və Ədəbiyyat», – 2016. № 1 (97), – с. 47-49
4. Социо-когнитивный подход к дискурсу // – Баку, Азербайджанский Университет Языков, Международная научная конференция об актуальных проблемах когнитивной и прикладной лингвистики, – 20-21 октября, – 2016, – с.192-194
5. Метафорическая репрезентация идеологии в американском политическом дискурсе // – Австрия-Вена, European Journal of Literature and Linguistics, – 2017. с.7-10
6. Репрезентация идеологии в американском художественном дискурсе // – Баку, Азербайджанский Унивенситет Языков, журнал «Dil və Ədəbiyyat» – 2017. № 1, – с. 496-502

7. Дискурс как социальное явление // – Баку, Азербайджанский Университет Языков, журнал «Elmi Xəbərlər», – 2017. №3, – с.110-114
8. Концепты «идеология и власть» в системе Американских ценностей // – Баку, Институт Образования Азербайджанской Республики, журнал «Elmi Əsərlər», – 2018. № 8, – с.327-331
9. Концепт «идеология» и дискурс в рамках критического дискурсивного анализа // Российская Федерация, Тальяти, Балтийский Гуманитарный Журнал, – 2020. том 9, №3(32), – с. 237-239
10. Лингвистическая вербализация идеологии в американском медиа и политическом дискурсах // Российская Федерация, Екатеринбург, Актуальные вопросы Филологической Науки XXI века, IX Международная научная конференция молодых ученых, – 7 февраля, – 2020, – с. 34-40.

Dissertasiyanın müdafiəsi 23 Sentyabr 2021 il tarixində saat 13^00 Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "23" Avqust 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.08.2021

Kağızın formatı: ________

Həcm: 38176

Tiraj: 30 nüsxə